DÖVLƏT VERGİ XİDMƏTİ

# İdxal ediləcək mallar barədə məlumat formasını təqdim edən subyektlər dəqiqləşdirilmişdir

**Vergi Məcəlləsində edilmiş dəyişikliyə əsasən 01.01.2023-cü il tarixdən etibarən**

Neft-qaz sahəsində fəaliyyəti olan və ya dövlət sektoruna aid edilən, **habelə "Yaşıl dəhliz" buraxılış sistemindən istifadə edən vergi ödəyiciləri istisna olmaqla**, digər vergi ödəyiciləri idxal ediləcək mallar barədə İqtisadiyyat Nazirliyi tərəfindən təsdiq edilmiş formada aşağıdakı məlumatları malların gömrük nəzarətindən çıxdığı vaxtadək (**hava nəqliyyatı ilə daşınan malların gömrük nəzarətindən çıxdığı vaxtdan 1 iş günü müddətində**) uçotda olduğu vergi orqanına verməlidir:

- mülkiyyət, icarə və ya digər əşya hüquqları əsasında istifadə edilən və (və ya) vergi orqanlarında təsərrüfat subyekti (obyekti) kimi uçota alınmış malların saxlanılacağı (boşaldılacağı) yer barədə;

195
AZ1029, Azərbaycan, Bakı, Heydər Əliyev prospekti, 155
Tel.: (+994 12) 403 89 70; Faks: (+994 12) 403 89 71
E-poçt: office@taxes.gov.az
www.taxes.gov.az

- mallar digər şəxslərə məxsus yerlərdə məsuliyyətli mühafizəyə və ya saxlanca verildiyi halda, tərəflər arasında bağlanmış müqavilə və malların saxlanma yeri barədə;
- mallar sifariş əsasında gətirildiyi halda, sifariş verən şəxslər (sifarişçi vergi ödəyicisi olduqda VÖEN-i, fiziki şəxs olduqda adı, soyadı, atasının adı və FİN-i) və hər bir sifarişçi üzrə sifarişin məbləği barədə.

**Qeyd:** Vergi ödəyicisinin vergi orqanında uçota alınmış bir təsərrüfat subyekti (obyekti) olduğu halda, bu məlumat forması vergi orqanına təqdim edilmir. Bu halda idxal edilmiş mallar həmin təsərrüfat subyektinə (obyektinə) boşaldılmış hesab olunur.

**Onu da bilməlisiniz ki...**

Vergi orqanının qeyd olunan məlumatları təqdim edən vergi ödəyicisinin mallarının saxlanıldığı (boşaldıldığı) yerə həmin mallar idxal edildiyi vaxtdan 3 iş günü müddətində baxış keçirmək hüququ vardır.

İdxal edilmiş mallar barədə yuxarıda qeyd olunan məlumatları təqdim etməyən və ya təhrif olunmuş formada təqdim edən vergi ödəyicisinə müvafiq olaraq idxal edilmiş malların hesab-faktura (invoys) dəyərinin və ya onun təhrif olunmaqla təqdim edilmiş hissəsinin mikro sahibkarlıq subyektlərinə münasibətdə 2 faizi miqdarında, digər şəxslərə münasibətdə 5 faizi miqdarında maliyyə sanksiyası tətbiq edilir.

**BAKI — 2023**